

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 190 (23.352)**

***10 oktyabr 2019-cu il, cümə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan artıq soydaşımızın qaçqın və köçkün vəziyyətinə düşdüyünü, dövlətimizin qaçqın və köçkünlərin sosial problemlərinin həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirdiyini qeyd edib.

Görüşdə Azərbaycanla İsveçrə arasında müxtəlif sahələrdə əməkdaşlıq, o cümlədən beynəlxalq təşkilatlar, beynəlxalq maliyyə təsisatları çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulub, dövlət idarəçiliyinin müxtəlif sahələri üzrə təcrübə mübadiləsi aparılmasının vacibliyi qeyd olunub.

* * *

Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıdakı Rus Kitab Evinin 10 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Rusiya nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanı qəbul edib.



# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilib

Oktyabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun Himayədarlar Şurasının fəaliyyətinin təşkili və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilmişdir.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, elm inkişaf etmədən ölkələrin inkişafını təmin etmək mümkün deyil. Ona görə də muxtar respublikada elmin inkişafı sahəsində mühüm işlər görülmüş, elmi potensial formalaşdırılmışdır. Elm adamlarına qayğı göstərilir, onların fəaliyyəti üçün hərtərəfli şərait yaradılır. Muxtar respublikada Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması, 3 ali təhsil müəssisəsinin fəaliyyət göstərməsi, internet resurslarının və elmi kitabxanaların formalaşdırılması, təhsil və elm müəssisələri arasında interaktiv əlaqələrin qurulması, nümunəvi dərslərin keçilməsi və müasir nəşriyyatların istifadəyə verilməsi elmin inkişafı üçün geniş imkanlar açmışdır. Ötən dövrdə muxtar respublikada elmi tədqiqatların nəticəsi olan mühüm kitab və ensiklopediyalar çap olunmuş, beynəlxalq konfrans və simpoziumlar keçirilmiş, ekspedisiyalar təşkil edilmişdir.

Ali Məclisin Sədri elmin inkişafı sahəsindəki səmərəli fəaliyyətlərinə görə muxtar respublikanın elm adamlarına təşəkkür etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirmişdir ki, 1997-ci ildə muxtar respublikanın ixtisaslı və elmi dərəcəli kadrlara olan tələbatını ödəyən, Naxçıvanda gələcək elmi potensialın əsasını qoyan ilk dissertasiya şurasının yaradılması elmin inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmuşdur. Hazırda muxtar respublikada təhsil sahəsində qazanılan uğurlar gələcək elmi inkişafı şərtləndirən başlıca amildir. Yaradılmış müasir infrastruktur, müəllim hazırlığı işinə qoyulan tələblər kadr təminatına kompleks yanaşmanın nəticəsidir. Elm ocaqlarında fəaliyyət göstərən dissertasiya şuralarında ədəbiyyatşünaslıq, dilçilik, iqtisadiyyat, pedaqogika, sənətşünaslıq, vətən tarixi, arxeologiya, etnoqrafiya ixtisaslaşmaları üzrə doktorluq və fəlsəfə doktoru proqramları üzrə dissertasiyalar müdafiə olunmuş, aparılmış elmi tədqiqatların nəticələri ölkəmizin və dünyanın aparıcı elmi jurnallarında nəşr olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq fərmanları ilə Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Naxçıvan Muxtar Respublikası Mükafatları Komissiyasının və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun, bu il isə Elmin İnkişafı Fondunun yaradılması muxtar respublikada elmin inkişafı sahəsində yeni mərhələnin əsasını qoymuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev demişdir ki, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin elmi işçilərinin 68 faizinin elmi dərəcəsi, 48 faizinin isə elmi adı vardır. Bu günə qədər əməkdaşların 208 monoqrafiyası, 210 kitabı, 5 dərsliyi, 26 tədris və metodik vəsaiti, 8034 elmi məqaləsi və konfrans materialı, 209 tezisi, 21 xəritəsi çap olunmuşdur. Alimlər 28 patent almış, 23 qrant layihəsinin qalibi olmuşlar. Elm adamları və ziyalılar adından minnətdarlıq edən İsmayıl Hacıyev Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatlarının, biomüxtəlifliyinin və torpaq örtüyünün öyrənilməsi, xarici ölkələrin arxivlərində Naxçıvanla bağlı sənəd və materialların aşkar edilməsi, Naxçıvanın maddi və mənəvi mədəniyyətinin tədqiq olunması, muxtar respublikada beynəlxalq simpozium və konfransların keçirilməsi, vacib elmi əsərlərin nəşri və gənc tədqiqatçıların elmi fəaliyyətlərinin stimullaşdırılması barədə təkliflər vermişdir.

Ali Məclisin Sədri təkliflərin Elmin İnkişafı Fondunun Himayədarlar Şurası tərəfindən müzakirə olunması, aidiyyəti üzrə məlumat verilməsi və tədqiqat qruplarının yaradılması barədə tapşırıqlar vermişdir.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, təhsilə göstərilən dövlət qayğısı muxtar respublikada elmi potensialı da gücləndirmiş, elm, ali və orta ixtisas təhsili müəssisələrində yüksəkixtisaslı professor-müəllim heyəti formalaşmış, mövcud elmi potensialdan səmərəli istifadə olunması diqqətdə saxlanılmışdır. Ötən tədris ilində ümumtəhsil məktəblərində 1358 saat nümunəvi dərs, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi tərəfindən isə 9 interaktiv dərs keçilmişdir. Bu isə elm və təhsil müəssisələri arasındakı əlaqələri möhkəmləndirməklə yanaşı, şagirdlərin biliklərinin artırılmasında, qabaqcıl təcrübənin öyrənilməsi və ixtisas seçimlərində mühüm rol oynayır.

Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmov minnətdarlıq edərək demişdir ki, Naxçıvan Dövlət Universiteti 43 kafedradan ibarət elmi-təşkilati struktura malikdir. Kafedraların əməkdaşları Universitet Elmi Şurası tərəfindən təsdiq olunmuş layihəyə əsasən Texnika, Riyaziyyat, Fizika, Biologiya, Coğrafiya, Tibb, Fəlsəfə, Tarix, İqtisad, Siyasət, Hüquq, Pedaqogika, Filologiya, Sənətşünaslıq, Şəhərsalma və Memarlıq elmi istiqamətləri üzrə elmi-tədqiqat işləri yerinə yetirirlər. Elmi-tədqiqat işlərinin 60 faizi muxtar respublika ilə bağlı olan mövzulardır. Həmçinin universitetin dörd seriyadan ibarət "Elmi əsərlər" jurnalı nəşr olunur. Son 10 ildə universitet əməkdaşlarının 187 monoqrafiyası, 41 dərsliyi, 282 dərs vəsaiti, 522 metodik vəsait və proqramı, 7762 elmi məqaləsi və 1033 tezisi çap olunmuşdur. Elmi məqalələrdən 1099-u, tezislərdən isə 322-si xaricdə dərc olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru Fəxrəddin Səfərli, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Vəli Baxşəliyev muxtar respublikada elmə göstərilən dövlət qayğısına görə minnətdarlıq etmiş, Elmin İnkişafı Fondunun elmi nəticələrin tətbiqi üçün geniş imkanlar açdığını bildirmişlər.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini-maliyyə naziri Səbuhi Məmmədov elmi layihələrin maliyyələşdirilməsi ilə bağlı görülən işlər barədə məlumat vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Dövlətin sosial-iqtisadi qüdrəti, ölkənin müdafiə qabiliyyəti və milli təhlükəsizliyi, cəmiyyətin mədəni tərəqqisi və xalqın rifahı elmin inkişaf səviyyəsi ilə birbaşa bağlıdır. ***“İqtisadiyyat hansı vəziyyətdə olursa olsun, elm inkişaf etməlidir”***, – deyən ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə bu amili əsas götürmüş, ümumi inkişafın aparıcı qüvvəsi kimi elmə və elm adamlarına böyük qayğı göstərmiş, Azərbaycan elm məktəbi mühüm təşkilatlanma yolu keçmiş, elmi tədqiqatların həcmi və keyfiyyəti xeyli artmışdır. Ulu öndərimizin ölkəmizdə elmin inkişafı sahəsində qəbul etdiyi mühüm qərarlardan biri də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması barədə 2002-ci il 7 avqust tarixli Sərəncamıdır.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderin müdrik qərarından sonra muxtar respublikada elm yeni inkişaf mərhələsinə yüksəlmiş, elmi tədqiqatların səmərəliliyi xeyli artırılmışdır. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində və ali təhsil müəssisələrində alim və tədqiqatçıların fəaliyyəti üçün lazımi şərait yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının tarixinin, etnoqrafiyasının, arxeologiyasının,

*Ardı 2-ci səhifədə*

mədəni mühitinin, folklorunun, flora və faunasının, təbii ehtiyatlarının araşdırılması sahəsində çoxsaylı tədqiqatlar aparılmış, Naxçıvanşünaslıq mühüm elmi istiqamət kimi müəyyənləşdirilmişdir. Elmə qayğı alim və tədqiqatçıların yetişməsi üçün də geniş imkanlar açmışdır. Hazırda muxtar respublikada 34 elmlər doktoru, 260 fəlsəfə doktoru fəaliyyət göstərir. Azərbaycan Milli Elmlər Akademiyasına Naxçıvandan olan elm adamlarından 3-ü həqiqi, 7-si müxbir üzv seçilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 7 sentyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması da elmin inkişafı və mövcud potensialdan daha səmərəli istifadə sahəsində mühüm vəzifələr müəyyənləşdirir.

Ali Məclisin Sədri muxtar respublikada elmin inkişafı ilə bağlı müvafiq tapşırıqlar verərək demişdir: Ümummilli liderimiz Heydər Əliyevin elmin inkişafı sahəsində qarşıya qoyduğu vəzifələr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun əsas fəaliyyət istiqaməti olmalıdır. Fond muxtar respublikada elmin inkişafı ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında yaxından iştirak etməli, bu məsələ ilə bağlı təklifləri irəli sürməli, layihələr hazırlamalı və həyata keçirməlidir. Naxçıvan Muxtar Respublikasında elmi müəssisələrin fəaliyyəti və aparılan elmi tədqiqatlar stimullaşdırılmalı, təbii resursların, mədəni və tarixi irsin öyrənilməsi sahəsindəki fəaliyyət gücləndirilməli, elmi araşdırmaların səmərəliliyi artırılmalıdır.

"Naxçıvanın qədim və müasir dövlətçilik tarixi alimlərimiz üçün əsas tədqiqat predmeti olmalıdır", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu il Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi tamam olur. Ötən illərdə muxtariyyət tarixi ilə bağlı mühüm elmi araşdırmalar aparılmışdır. Lakin düşünürük ki, bu məsələ daim diqqətdə saxlanılmalı, Naxçıvanın muxtariyyət tarixi ilə bağlı tədqiqatlar davam etdirilməli, əsassız iddiaların qarşısı mühüm elmi sübut və arqumentlərlə alınmalıdır. Bu gün Naxçıvanşünaslıq mühüm elm sahəsi kimi daha geniş tədqiqatların aparılması zərurətini ortaya qoyur. Ona görə də Naxçıvanşünaslığın elmi-nəzəri əsaslarla öyrənilməsi, xüsusilə muxtar respublikanın müasir ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafı, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi sahəsində görülən işlər elmi tədqiqatlara cəlb olunmalıdır.

Qeyd olunmuşdur ki, dövlət orqanları ilə elmi müəssisə və təşkilatlar arasında əməkdaşlığın genişləndirilməsi qarşıda duran əsas vəzifədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu fəaliyyətində bu amili əsas götürməli, müvafiq layihələr reallaşdırılmalıdır. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi ilə elm və ali təhsil müəssisələri arasında əlaqələr gücləndirilməli, təkmilləşdirmə kursları keçirilməlidir. Vaxtilə Naxçıvanla bağlı elmi tədqiqatlar məhdud çərçivədə aparılırdı. Lakin bu gün elmi araşdırmalar mövzu və əhatə baxımından xeyli genişlənmiş, xarici ölkələrin tanınmış mütəxəssisləri ilə səmərəli əməkdaşlıq qurulmuşdur. Bu sahədəki fəaliyyət davam etdirilməli, muxtar respublikada əldə edilmiş elmi nəticələr ölkə və dünya elmi məkanında layiqincə tanıdılmalı, birgə araşdırmaların aparılması və beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə konfrans, simpozium və seminarlar keçirilməlidir.

Ali Məclisin Sədri demişdir: Cəmiyyət həyatının bütün sahələri üzrə elmi potensialdan səmərəli istifadə təmin edilməli, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə elmin inkişaf strategiyası bir-biri ilə əlaqələndirilməli, prioritet elmi istiqamətlər müəyyənləşdirilməli, iqtisadi təhlillər aparılmalı, muxtar respublikanın zəngin təbii sərvətləri elmi şəkildə araşdırılmalı, onların əhəmiyyəti və istehsalatda tətbiqi imkanları öyrənilməlidir. Elmin muxtar respublikanın iqtisadi inkişafında rolunu artırmaq əsas hədəf kimi götürülməli, fundamental və tətbiqi elmi tədqiqatların təşkilinə, onların nəticələrinin praktikada tətbiqinə çalışılmalı, muxtar respublikanın elmi-texniki potensialı inkişaf etdirilməli, elmtutumlu istehsal sahələrinin yaradılmasına dəstək verilməlidir. Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının əsasını təşkil edir. Ona görə də Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi "Araz" Elm-İstehsalat Birliyi ilə birlikdə muxtar respublikanın iqlim və torpaq xüsusiyyətləri barədə araşdırmaları davam etdirməli, aqrar sahədə elmi təcrübələrin aparılması və toxum genofondunun formalaşdırılması, mütərəqqi metodların və aqrotexniki qaydaların tətbiqi diqqətdə saxlanılmalıdır.

Müşavirədə diqqətə çatdırılmışdır ki, Naxçıvan tarixilik, müqəddəslik və yeni həyatın başlandığı yer kimi mühüm elmi tədqiqatların mövzusudur. Ötən dövrdə hər üç istiqamətdə geniş tədqiqatlar aparılmış, mühüm elmi nəticələr əldə olunmuşdur. Lakin bu son həd deyil. Elmi tədqiqatlarda bu məsələyə yenidən qayıdılmalı, geniş araşdırmalar aparılmalı, əldə olunan elmi nəticələr beynəlxalq səviyyədə tanıdılmalıdır. Elmi fəaliyyətin əsas daşıyıcıları yüksəkixtisaslı kadrlardır. Bu səbəbdən də tədqiqatçı-mütəxəssislərin hazırlanması diqqətdə saxlanılmalı, hər bir elm adamının öz məktəbi olmalı, varislik təmin edilməli, gənc alimlərin fəaliyyətinə dəstək verilməlidir. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə muxtar respublikanın ali təhsil müəssisələri arasında əlaqələr gücləndirilməli, alim və mütəxəssislərin elmi fəaliyyətləri əlaqələndirilməli, yeni istiqamətlər müəyyənləşdirilməli, qarşılıqlı elmi müzakirələr aparılmalıdır.

Ali Məclisin Sədri demişdir: Elmi araşdırmalarda arxiv materiallarına və digər mötəbər mənbələrə istinad edilməli, təhlil və müqayisələr aparılmalı, tədqiq olunan mövzu barədə geniş informasiya ehtiyatı yaradılmalıdır. Himayədarlar Şurası elmi müəssisə və təşkilatların, hüquqi və fiziki şəxslərin layihələrinin qiymətləndirilməsi məqsədilə aidiyyəti dövlət orqanlarının, elmi-tədqiqat müəssisələrinin nümayəndələrindən və digər mütəxəssislərdən ibarət ekspert komissiyalarının yaradılmasına dair tövsiyələr verməlidir. Fondun Himayədarlar Şurasının Tədbirlər Planı hazırlanmalı, ümumi fəaliyyətlə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə mütəmadi məlumat verilməlidir.

Bildirilmişdir ki, müasir dövrdə elmin informasiya təminatını gücləndirmədən onun səmərəsindən danışmaq olmaz. Qısa müddətdə fondun yeni internet saytı və elektron məlumat bankı yaradılmalı, qanunvericiliklə açıqlanmalı olan ictimai informasiyalar həmin saytda yerləşdirilməli və təbliğ olunmalı, elm müəssisələrinin saytları və elektron kitabxanaları zənginləşdirilməlidir. Naxçıvanda mühüm elmi nailiyyətləri, elmi nəşrləri və elmi tərəqqiyə xidmət edən startap layihələrini əhatə edən "Elm Festivalı" keçirilməlidir.

"Elmdə son həd, axırıncı tədqiqat anlayışı yoxdur. Elm davamlı inkişafdır. Bu inkişafla ayaqlaşmaq isə günün tələbidir", – deyən Ali Məclisin Sədri çıxışını ölkə Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Ölkələrin uğurlarının təməlində ideya, fikir, innovasiya, elmi-texniki tərəqqi dayanır. Biz də ölkəmizdə müxtəlif istiqamətlərdə islahatlar apararkən müasirləşməyə üstünlük veririk. Müasir dövlətin qurulması isə elmin inkişafı olmadan mümkün deyildir".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dövlət Miqrasiya Xidmətinin nümayəndə heyəti BMT QAK-ın İcraiyyə Komitəsinin 70-ci sessiyasında iştirak edir






*Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq Məsələləri Baş İdarəsinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Rza Talıbov Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) İcraiyyə Komitəsinin 70-ci sessiyasında iştirak üçün İsveçrənin Cenevrə şəhərində səfərdədir.*

Dövlət Miqrasiya Xidmətindən bildirilib ki, sessiyanın birinci günündə vətəndaşsızlıq məsələləri ilə əlaqədar yüksək səviyyəli seqment təşkil olunub.

Tədbirdə çıxış edən Rza Talıbov Azərbaycanın 1992-ci ildən etibarən vətəndaşsızlıq hallarının azaldılması ilə bağlı qoşulduğu bir sıra beynəlxalq sənədlərin əhəmiyyətinə toxunub. Bildirib ki, Ermənistanın 1988-1992-ci illərdə planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min azərbaycanlı son nəfərədək doğma yurdundan zorla çıxarılıb. Həmin insanların hamısı Azərbaycana pənah gətirib. 1990-cı ildə 50 minədək məshəti türkü də məhz ölkəmizdə sığınacaq tapıb.

Prezident cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin əhalinin rifah halının yüksəldilməsinə xidmət etdiyini vurğulayan Rza Talıbov ölkəmizdə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə göstərilən qayğıdan, onların cəmiyyətə inteqrasiyası məqsədilə reallaşdırılan tədbirlərdən, o cümlədən miqrasiya qanunvericiliyinin tələblərinin sadələşdirilməsi və vətəndaşlıq sahəsində humanist hüquqi yanaşmanın tətbiqindən danışıb. Vurğulayıb ki, dövlət rəhbərliyinin uğurlu siyasətinin nəticəsində respublikamızda doğulan və hər iki valideyninin vətəndaşlığı olmayan uşaq, eləcə də Azərbaycan ərazisində olan və hər iki valideyni naməlum uşaq da tamhüquqlu vətəndaş hesab edilir.

Baş İdarə rəisi respublikamızda vətəndaşlığı olmayan şəxslərin naturalizasiyası istiqamətində atılan addımlardan da danışıb. Bildirib ki, vətəndaşlıq almaq üçün müraciət edənlərin sayında artım müşahidə olunur. Bu da ölkədəki sosial-iqtisadi inkişafla bağlıdır. 2008-2019-cu illərdə, ümumilikdə, vətəndaşlığı olmayan 1619 şəxs Prezident cənab İlham Əliyevin müvafiq sərəncamları ilə vətəndaşlığa qəbul edilib. Əlli bir nəfərin isə vətəndaşlığının bərpası həyata keçirilib. Hazırda ölkə ərazisində 545 nəfər vətəndaşlığı olmayan şəxs var. Növbəti üç ildə həmin şəxslərin naturalizasiyası təmin ediləcək.

Yüksək səviyyəli seqmentdə təmsil olunan dövlətlər tərəfindən vətəndaşsızlıq hallarının aradan qaldırılması istiqamətində



könüllü vədlər elan edilib. Azərbaycan Hökuməti tərəfindən də ölkəmizin milli maraqları nəzərə alınmaqla müvafiq öhdəliklər səsləndirilib.

BMT QAK-ın İcraiyyə Komitəsinin 70-ci sessiyasına oktyabrın 11-də yekun vurulacaq.

**AZƏRTAC**

## Şura iclası keçirilib

*Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının Şura iclasında 2019-cu ilin doqquz ayının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.*

İclası giriş sözü ilə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Sevda Quliyeva açaraq məruzə ilə çıxış edib. Bildirib ki, bu il müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında mühüm yer tutan Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü tamam olur. Ümummilli liderimiz Heydər Əliyevin ideyalarına əsaslanaraq çox böyük və şərəfli yol keçən bu partiyanın uğurlu siyasi fəaliyyətinin nəticəsidir ki, Kəngərli rayonu da ötən illərdə böyük inkişaf yolu keçib. Müstəqilliyimizin bəhrəsi



olan bu gənc rayonda yaradıldığı dövrdən keçən 15 il ərzində bütün yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb, abad yollar salınıb. Həyata keçirilən yeni infrastruktur layihələr hesabına əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi, işsizliyin aradan qaldırılması, güzəranlarının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının 30 ərazi ilk partiya təşkilatında birləşən 3 min 195 partiya üzvündən 1316-sı, yəni 41,1 faizi qadın, 1107-si, yəni 34,6 faizi isə gənclərdən ibarətdir. Qeyd olunan dövrdə partiyanın sıralarına qəbul edilənlərin sayı 51 nəfər olub ki, bunların da 33-ü qadın, 42-si isə gəncdir.

Kəngərli Rayon Təşkilatının cari ildəki fəaliyyətindən danışan Sevda Quliyeva bildirib ki, təşkilat öz işini Yeni Azərbaycan Partiyasının Nizamnamə və Proqramına, təşkilatın müəyyən olunmuş müvafiq iş planına uyğun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının 2017-ci il 16 mart tarixli iclasının tələbləri səviyyəsində qurub. 2019-cu ilin hesabat dövrü ərzində təşkilatın 3 şura, 8 İdarə Heyəti yığıncağı keçirilib.

Qeyd olunub ki, təşkilati işlər bundan sonra da diqqət mərkəzində saxlanılmalı, vətənpərvər, ictimai işlərdə fəal və təşəbbüskar gənclərin partiya sıralarına cəlb edilməsinə diqqət artırılmalıdır. Hər bir partiya üzvü rayonda gedən quruculuq, abadlıq və yaşıllaşdırma tədbirlərində və qarşıya qoyulan digər vəzifələrin həyata keçirilməsində səyini əsirgəməməlidir.

Yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirən təşkilat sədri qeyd edib ki, Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatı bundan sonra da fəaliyyətini ulu öndər Heydər Əliyevin ideyalarına və siyasi kursuna uyğun quracaq, partiya üzvləri muxtar respublikanın ictimai-siyasi həyatında daha fəal iştirak edəcəklər.

Tədbirdə Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının Şura üzvü Tahir Məmmədov, rayon Statistika İdarəsi ərazi ilk partiya təşkilatının sədri Fail Mirzəyev, Qıvraq qəsəbə ərazi ilk partiya təşkilatının sədri Yunis Ələkbərov, Yurdçu kənd ərazi ilk partiya təşkilatının sədr müavini Bəxtiyar Süleymanov çıxış ediblər.

**Babək İSMAYILOV**

Səhiyyə

# Şəfqətlə müalicə, ömrün etibarı, yaşamaq ümidi...

## Həkim və tibb işçilərinin etik davranış qaydaları insan amilinə verilən dəyərin ifadəsidir

***Əhalinin sağlamlığının qorunmasında həkimin, onun peşəkar fəaliyyətinin və mənəvi mövqeyinin böyük rolu vardır. Buna görə də tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, səhiyyə işçilərinə ictimai etimadı doğrultmaq üçün etik davranış qaydalarının müəyyən olunması vacib və əhəmiyyətli məsələlərdən biridir. Bütün bunlar nəzərə alınaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən 2017-ci il iyunun 29-da "Həkimlərin etik davranış qaydaları", 2019-cu ilin iyul ayında isə "Tibb işçilərinin etik davranış qaydaları" hazırlanaraq təsdiq edilib və bu qaydaların icra olunmasına nəzarəti təmin etmək üçün etika komissiyası yaradılıb. Səhiyyə nazirinin müvafiq əmrinə əsasən nazir müavini, sədr, aparat rəhbəri, kadr, elm və təhsil, maliyyə-iqtisadiyyat, ümumi işlər sektorlarının, tibbi yardımın təşkili şöbəsinin müdirləri və hüquqşünas komissiyanın üzvləri təyin olunublar. Həmçinin şəhər tibb müəssisələri və rayon mərkəzi xəstəxanalarında da etika komissiyaları fəaliyyətə başlayıb. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin 30 avqust 2019-cu il tarixli kollegiyasında bununla bağlı tapşırıqlar verilib.***





Həkim və tibb işçilərinin etik davranış qaydaları, bütövlükdə, mülkiyyət hüququndan asılı olmayaraq, muxtar respublika ərazisində yerləşən bütün səhiyyə müəssisələrində çalışan həkim və tibb işçilərinə aid olmaqla, insan hüquqlarını, demokratik prinsipləri, deontologiya və ümumi etik davranış qaydalarını rəhbər tutur. Əsas məqsəd səhiyyənin nüfuzunun artırılmasından, səhiyyə müəssisələrinə və tibb işçilərinə ictimai etimadın yüksəldilməsindən, onların fəaliyyətində maraqların toqquşmasının qarşısının alınmasından, etik davranış qaydalarına əməl olunmasının təmin edilməsindən, tibb işçilərinin fəaliyyətinin qiymətləndirilməsinə vətəndaşların təsiri imkanlarının genişləndirilməsindən ibarətdir.

Etik davranış qaydalarının mətni bütün səhiyyə müəssisələrinə göndərilərək tibb işçilərinin məlumatlandırılması təmin edilib. Artıq hər bir həkim və tibb işçisinin praktik fəaliyyəti yeni qaydalar çərçivəsində qiymətləndirilir. Eyni zamanda maarifləndirici tədbirlər də davam etdirilir.

Həkim-xəstə, eləcə də tibb bacısı-xəstə münasibətləri bioetikanın başlıca problemidir. Həkimin etibarlılığı, sənətinə vicdanla yanaşması, diqqətli olması, xeyirxahlığı, xəstəyə fərdi yanaşması, onun psixoloji xüsusiyyətlərini nəzərə alması, xəstələrin müalicə və diaqnostikasında kliniki və deontoloji əsaslandırması, konfidensiallığı müalicənin mühüm şərtləri sırasındadır. Səhiyyənin bu əsas prinsipləri deontologiyanın bir elm kimi daim aktual olmasına stimul verir.

Deontologiya, əslində, bütün insan cəmiyyəti yaranandan bəri aktuallığını itirməyən yeganə elm sahəsidir. Eskulapdan, Hippokratdan, İbn Sinadan üzübəri öz xoşbəxtliyini sağaltdığı xəstələrin xoşbəxtliyində tapmaq, həkim kimi xəstənin xoşbəxtliyi ilə xoşbəxt olmaq prinsipi özünü təbabətə həsr edən insanların əxlaqi dəyərlərinə çevrilib.

Hələ qədimdən müalicə prosesində insan (xəstə) psixikasının roluna yüksək qiymət verilib. Sokrat deyib: "Ruhu müalicə etmədən bədəni sağaltmaq mümkün deyil". Rəssam Levitan müalicə prosesində həkim şəxsiyyətinin, diqqətinin, canıyananlığının əhəmiyyətini qiymətləndirərək sanatoriyadan tanışlarına yazır: "Burada ürəyi vannalarla müalicə etməyə çalışırlar, bu cəfəngiyyatdır, ürəyi yalnız ürəklə müalicə etmək olar". Həkim sənətini seçən unutmamalıdır ki, xəstə zədələnmiş, kövrək psixikalı insandır.

Həkim və tibb işçiləri öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş səlahiyyətləri çərçivəsində insana ehtiramla, vicdanla, humanizm və mərhəmətlilik prinsiplərini rəhbər tutaraq peşəkarlıq səviyyəsində həyata keçirməlidirlər. Eyni zamanda öz vəzifələrini xəstənin heç bir mənsubiyyətindən asılı olmayaraq, yerinə yetirməlidirlər.

Qərəzsiz olmaq həkimin başlıca meyarıdır. Bu mənada, V.Vinnerin "Kəllə" pyesində həkim Koulu tibdə insanpərvərlik rəmzi kimi qiymətləndirmək olar. Həkim-cərrahın qəddar düşməni, arvadının və yeganə oğlunun qatili qəza nəticəsində ağır vəziyyətdə onun qəbuluna gətirilir. Həkimin intiqam hissi donur, xəstəni əməliyyat edərək sağaldır. Belə misallar onlarla, yüzlərlədir. Həkimin xidmət etdiyi humanist məqsədlər, sülh və əmin-amanlıq dövründə olduğu kimi, müharibə dövründə də, ona şəxsi ləyaqətinin qanuni müdafiəsini, professional fəaliyyətinin həyata keçirilməsi üçün şərait yaradılmasını tələb etməyə əsas verir. Məşhur bir kəlama görə, bir bacarıqlı həkim müharibədə çoxlu döyüşçüyə bərabərdir. Biz Sədərək döyüşlərində dəfələrlə bunun şahidi olmuşuq.1992-ci ilin sərhədyanı münaqişə zamanı Naxçıvan həkimləri yaralılar üçün mina mərmiləri altında Sədərək qəsəbəsinə döyüş zonasına getməli olurdular. Belə günlərin birində yaralını döyüş meydanından xilas etdiyi zaman Şərur rayonundan olan həkim Valid Məmmədov düşmən gülləsi ilə həyatla vidalaşıb.

Həkim öz qərar və hərəkətlərinə görə tam məsuliyyət daşıyır. Xəstələrə göstərdiyi yardımın keyfiyyətinin artırılması məqsədilə həkim, tibb elminin son nailiyyətlərindən istifadə edərək öz bilik və bacarıqlarını daim təkmilləşdirməlidir. Həkimin hərəkətlərinə və qəbul etdiyi qərarlara şəxsi və maddi maraqların səbəbləri təsir etməməlidir. Eyni zamanda insanların haqlı tənqidindən nəticə çıxararaq fəaliyyətini təkmilləşdirməli və çatışmazlıqları aradan qaldırmalıdır.

Həkim vəzifələrinin icrası ilə bir araya sığmayan və onun adına xələl gətirə biləcək, habelə səhiyyənin nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməli, ləyaqətini alçaltmayan, pasiyentlərə zərər vurmayan vəzifə funksiyalarını həyata keçirməli, bütün imkanlardan istifadə etməklə, habelə kütləvi informasiya vasitələri ilə sağlam həyat tərzini təbliğ etməli, ictimai və professional etik normalara riayət edilməsində nümunə olmalıdır.

Qaydalar həkim və pasiyent münasibətlərində də mühüm rol oynayır. O, pasiyenti əsassız riskə məruz qoymamalı, xüsusilə də bilik və bacarığını qeyri-humanist məqsədlər üçün istifadə etməməlidir. Həkim hər hansı müalicə üsulunun seçimində, ilk növbədə, zərər vurmamaq prinsipini rəhbər tutmalıdır.

Yeri gəldikdə, həkimdən susmaq, hətta xəstənin xeyrinə yalan danışmaq bacarığı da tələb olunur. Bu, tibdə "müqəddəs yalan" adlanır. O yalan ki insana həyat bəxş edir, o, acı həqiqətdən üstündür. Xüsusən səhiyyə sistemində. Məsələn, xəstəliyi ölümlə nəticələnəcək bir insana ümid verərək onu sağalacağına inandırmaq.

Bəzən həkim və tibb bacısının xəstənin yanında onun doğmaları ilə asta danışığı, mənalı baxışları, sifətlərinin ifadəsi də xəstədə öz sağlamlığı barədə şübhələr yaradır. Azərbaycan poeziyasında özünəməxsus yeri olan şair Əli Kərimin "Vəsiyyət" şeirində olduğu kimi:

*Yeri oldu-olmadı*  
*həkim ki*  
*girdi xəstənin qılığına,*  
*Nəsə pıçıldadı*  
*dostlarından birinin qulağına –*  
*Onda həkim, salam-əleykim!*

Həkim və tibb bacısının xəstə ilə ünsiyyəti onun sağlamlığına inamını artırır. Təbabətdə "yatrogen xəstəliklər" adlandırılan məfhumu vardır. Bu xəstəliklər tibb işçisinin xəstələrə düşünmədən dediyi sözlərdən əmələ gəlir və müalicəsi çətinləşir. Odur ki, əhalinin sağlamlığının qorunmasında həkimin, onun peşəkar fəaliyyətinin və mənəvi mövqeyinin böyük rolu vardır. Buna görə də həkimlərin fəaliyyətinin səmərəliliyinin artırılması, onların ictimai etimadının yüksəldilməsi üçün etik davranış qaydalarının müəyyən olunması vacib və əhəmiyyətli məsələlərdən biridir.

Tibb işçisinin zahiri görünüşü, geyimi, hətta danışığı, mimikası da xəstəyə təsir edir. Təmiz, ütülü ağ xalatda, başında ləçək, çöhrəsində təbəssüm, savadlı, qabiliyyətli tibb bacılarını xəstələr daha çox sevir və onlara inanırlar. Belə görkəm xəstəyə psixoterapevtik təsir edir. Bunun əksi isə xəstədə mənfi təəssürat, tibb işçisinə inamsızlıq yaradır.

Tibb bacısı bilməlidir ki, işə gələn zaman kəskin iyli ətirlərdən istifadə etmək allergiyası olan xəstələrdə boğulma tutulmalarına və onların vəziyyətinin pisləşməsinə səbəb ola bilər. Yaxud bir də görürdün ki, tibb işçisi xəstə ilə məşğul olmaq əvəzinə smartfon telefonu ilə uzun-uzadı şəxsi söhbətlə məşğuldur, sosial şəbəkələrdədir. Başı telefon oyunlarına qarışıb, çəkilişlər aparır, səs yazır. Odur ki, belə hallar nəzərə alınaraq səhiyyə müəssisələrində iş zamanı smartfon telefonlardan istifadə qadağan edilib.

Həkim səhvlərə yol verilməsi və ya müalicə prosesində gözlənilməz ağırlaşmalar zamanı xəstəni və təcrübəli həmkarını məlumatlandırmalı, bu barədə göstərişləri gözləmədən zərərli nəticələrin aradan qaldırılmasına yönəldilmiş hərəkətlərə başlamalıdır. O, öz həmkarlarına hörmətlə yanaşmalı, digər həkimin peşəkar səriştəsini əsassız olaraq şübhə altına almamalı və onu nüfuzdan salmamalıdır. Peşəkar iradlar əsaslandırılmalı və kollegiallıq prinsiplərinə uyğun olaraq bildirilməlidir. Çətin klinik hallarda təcrübəli həkim gənc həmkarlarına məsləhətlər verməli və köməklik göstərməli, müəssisənin digər tibb və yardımçı heyətinə hörmətlə yanaşmalı və daim onların bilik və bacarıqlarının artırılmasına köməklik etməlidir. Vətəndaşın və ya onun qanuni nümayəndəsinin razılığı ilə həkim sirrini təşkil edən məlumat pasiyentin müayinə və müalicəsinin mənafeyi naminə elmi tədqiqatların aparılması, elmi ədəbiyyatda nəşr edilməsi, tədris və digər məqsədlərlə istifadə olunması üçün başqa vətəndaşlara və vəzifəli şəxslərə verilə bilər.

Həkim sirrinə qanuni qaydada yiyələnən şəxslər onun yayılmasına və bununla əlaqədar vətəndaşa dəyən zərərə görə qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar. Xəstənin müalicəsində iştirak edən digər şəxslərin həkim sirrinə riayət etmələrinə müalicə həkimi tərəfindən nəzarət edilməlidir. Tibbi məlumatlardan istifadə hüququ olan şəxslər pasiyent haqqında əldə edilən bütün məlumatların məxfiliyini qorumalıdırlar. Elmi tədqiqatlar, tələbələrin təlimi və həkimlərin təkmilləşdirilməsi prosesində həkim sirrinə riayət edilməlidir.

Həkim öz peşə vəzifələrini lazımi səviyyədə yerinə yetirmədikdə və ya sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulmasına yol verdikdə qanunvericiliyə uyğun olaraq intizam, inzibati, cinayət və digər məsuliyyətə cəlb oluna bilər. Bu, ilk növbədə, etika komissiyasının qərarı ilə həyata keçirilir. Həmin qərarlar, eyni zamanda orta tibb işçilərinə də şamil edilir.

Qaydalara uyğun olaraq tibb işçisi həmişə öz həmkarları ilə hörmətlə rəftar etməli, yoldaşları ilə mehriban olmalı, hündürdən danışmamalı, lazım gəlsə, onları müdafiə etməlidir. Deontologiyanın prinsiplərinə riayət etməyən, nöqsanlara yol verən tibb işçilərinin işdə qalıb-qalmaması məsələsinə etika komissiyasında baxılacaq və bu məsələ komissiyanın qərarı ilə həll olunacaqdır. Bütün bunlar isə əhalinin sağlamlığının etibarlı təminatına xidmət edəcək.

**Hüseyn ƏSGƏROV**  
*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi*

***Naxçıvan Dövlət Universitetində "Kimya elminə müasir baxış" adlı elmi konfrans keçirilib.***

# Elmi konfrans keçirilib



Konfransda çıxış edən universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ölkəmizdə kimya elminin inkişafından bəhs edib, son illər qazanılan uğurlar barədə danışıb.

"Bəzi aminturşular və onların qarışıq funksiyaları törəmələrinin əsasında birləşmənin quruluşu – inhibitor effekti asılılığının tədqiqi" adlı çıxışında universitetin Kimya kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Tofiq Əliyev korroziya proseslərindən söz açıb. Qeyd edib ki, əksər metallar korroziya nəticəsində dağılaraq vaxtından əvvəl sıradan çıxır. Bu da sonda külli miqdarda dövlət vəsaitinin itirilməsinə gətirib çıxarır.

Bildirilib ki, təxmini statistik hesablamalara görə, hər il dünya miqyasında istehsal olunan metal və ərintilərinin 8-12 faizi korroziya nəticəsində itkiyə gedir. Bu da milyardlarla dollar vəsaitin itirilməsi deməkdir. Korroziya proseslərinin qarşısını almaq üçün səmərəli üsullardan danışan professor inhibitorların tətbiqinə əsaslanan daha əlverişli üsulu qeyd edib. Belə ki, bu üsuldan istifadə etdikdə mövcud texnoloji sistemdə heç bir dəyişikliyə ehtiyac olmur.

AMEA Fizika İnstitutunun professoru, fizika üzrə elmlər doktoru İmaməddin Əmiraslanov "Kristallar, kvazikristallar və türk sənəti" adlı çıxışında təbiətdə mövcud olan bərk maddənin amorf və kristallik adlı iki halından danışıb. Qeyd edilib ki, amorf maddələrdən fərqli olaraq kristallar mükəmməl həndəsi formalara malikdir və bir çox hallarda təmizlik, gözəllik və mükəmməllik simvolu kimi qəbul olunur. Amorf maddələrə örnək kimi şüşə və plastması, ikincilərə isə xörək duzu, şəkər, almaz və sair maddələrin kristallarını göstərmək olar.

Diqqətə çatdırılıb ki, kvazikristalların kəşfi 2011-ci ilin kimya üzrə Nobel mükafatına layiq görülüb. Kvazikristal prinsipli olduğu təsdiqlənmiş ən qədim aperiodik ornament məhz İranın Marağa şəhərindəki oktaqonal prizma formalı Gunbad-i Kabud məqbərəsinin divarlarını bəzəyir.

Plenar iclasda suallar cavablandırılıb, təkliflər dəyərləndirilib.

Konfrans bölmə iclasları ilə davam edib.

**Səadət ƏLİYEVA**

# Gənc alimin növbəti elmi uğuru

AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Sorbsiya prosesləri laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Günel Məmmədova nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunan məqalələrinin səviyyəsinə, aktuallığına görə Sinqapurun "Materialşünaslığın tədqiqi və tətbiqi" beynəlxalq jurnalının redaksiya heyətinə üzv seçilib.

Gənc alim Naxçıvan Muxtar Respublikasının təbii mineralı – seolitlə bağlı müasir analiz metodlarından istifadə etməklə yüksək nailiyyətlər əldə edib. Apardığı mühüm elmi-tədqiqat işlərinin nəticələri dünyanın bir neçə xarici ölkələrinin nüfuzlu beynəlxalq jurnallarında rus və ingilis dillərində işıq üzü görüb. Onun seolitlərin tətbiq sahələrindən, onların alınma şəraitindən və müxtəlif quruluşlu seolitlərin sintezindən bəhs edən kitab və monoqrafiyaları ölkə və xarici nəşriyyatlarda çap olunub.

Qeyd edək ki, Günel Məmmədova İngiltərənin Kembric Skolars Pablişinq Nəşriyyatının "Qeyri-üzvi kimya" jurnalının məsləhətçi redaksiya heyətinin, "Yeni Universitet" (Rusiya), həmçinin "Müasir fizikanın Amerika jurnalı" və "Qeyri-üzvi kimya" beynəlxalq jurnalının redaksiya heyətinin üzvüdür.

*AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi*



*10 oktyabr yanğınsöndürənlərin peşə bayramıdır*

# Muxtar respublikada yanğından mühafizə xidməti diqqət mərkəzindədir

***Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ildə imzaladığı Sərəncamla hər il oktyabr ayının 10-u Azərbaycan yanğınsöndürənlərinin peşə bayramı günü kimi qeyd olunur.***

Ulu öndər Heydər Əliyev Azərbaycana birinci rəhbərliyi dövründə yanğın təhlükəsizliyi orqanlarının inkişafını diqqətdə saxlamış, bu sahədəki problemlər öz həllini tapmışdır. Dahi şəxsiyyətin yenidən siyasi hakimiyyətə qayıtması ölkəmizdə yanğın təhlükəsizliyi işinin də dirçəlməsinə və sistemli şəkildə inkişafına təkan verdi. 1997-ci ildə Yanğın təhlükəsizliyi haqqında Azərbaycan Respublikası Qanununun qəbul olunması ilə yanğından mühafizə sisteminin təşkilinin hüquqi əsasları müəyyənləşdirilmişdir. Görülən məqsədyönlü tədbirlər nəticəsində yanğından mühafizə sistemi təkmilləşdirilmiş, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşmış, təminat və təchizat məsələləri öz həllini tapmışdır.

Yanğın təhlükəsizliyi orqanları muxtar respublikada diqqət və qayğı ilə əhatə olunmuş, bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülmüşdür. Belə ki, 2002-ci ildə Sədərək rayonunda hərbiləşdirilmiş yanğın hissəsi yaradılmış və onun fəaliyyətinin təmin edilməsi üçün inzibati bina və texniki qaraj tikilmiş, 2003-cü ildə isə Ordubad və Şahbuz rayonlarında peşəkar yanğın hissələri hərbiləşdirilmiş yanğın hissələrinə çevrilmişdir. 2004-cü ildə Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinə idarə statusu verilmiş, onun yerli qurumları xidmətdən şöbəyə çevrilmiş, Kəngərli rayonunda isə hərbiləşdirilmiş yanğın hissəsi yaradılmışdır.

2006-cı ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarının Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilməsi ilə yanğın təhlükəsizliyi orqanlarının fəaliyyətində yeni mərhələnin əsası qoyulmuşdur. 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası və texniki qarajı əsaslı təmir edilmiş, 2009-2015-ci illərdə isə Kəngərli, Şahbuz, Ordubad, Şərur, Babək və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələri üçün yeni inzibati binalar və texniki qarajlar tikilərək şəxsi heyətin istifadəsinə verilmişdir. Hazırda Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün yeni inzibati bina və texniki qarajların tikintisi işləri uğurla davam etdirilir.

Nazirlik yaradıldığı gündən yanğın təhlükəsizliyi orqanlarında peşə hazırlığının artırılması üzrə beynəlxalq təcrübənin öyrənilməsi, texniki təchizat və təminatın müasir standartlara uyğunlaşdırılması, həmçinin ixtisaslı kadrların hazırlanması istiqamətində tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmışdır. 2006-2019-cu illər ərzində ümumilikdə, 117 nəfər Azərbaycan, Ukrayna və Belarus respublikalarının akademiyalarına, həmçinin Bakı Yanğın Texniki Kollecinə təhsil almağa göndərilmişdir. Onlardan 99-u təhsillərini başa vuraraq bu gün Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarında xidmətlərini layiqincə davam etdirir.






Yanğın təhlükəsizliyi orqanlarının maddi-texniki bazasının gücləndirilməsi məqsədilə müasir yanğınsöndürmə avtomobilləri, xüsusi geyimlər, radiostansiyalar və digər xidməti avadanlıqlar alınmış, struktur qurumlarla videokonfrans əlaqəsi yaratmaq üçün avadanlıqlar quraşdırılmış, mərkəzləşdirilmiş rabitə sistemi istifadəyə verilmişdir. Muxtar respublikanın yanğın təhlükəsizliyi orqanları göstərilən dövlət qayğısına əməli işi ilə cavab verərək 2019-cu ilin ötən dövrü ərzində yanğın təhlükəsizliyinin təmin edilməsi, yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 3351 obyektdə və 203 dövlət yaşayış binasının 4285 mənzilində yanğın-texniki müayinələr aparmış, insanlar yanğına qarşı təlimatlandırılmışlar. Həmçinin muxtar respublikada təbii qazdan və elektrik enerjisindən istifadə zamanı məsrəfçiliyin qarşısının alınması və yanğın təhlükəsi yarada biləcək sahələrin ləğv edilməsi məqsədilə yaşayış evlərinə və mənzillərə baxışlar keçirilmişdir.

Yanğın təhlükəsizliyi sahəsində əhalinin maarifləndirilməsi ilə bağlı müxtəlif təbliğat materialları, yaddaş kitabçaları və videomateriallar hazırlanmış, 14 dəfə Naxçıvan Dövlət Televiziyası və radiosunda müxtəlif mövzularda çıxışlar olmuş, "Şərq qapısı", şəhər və rayon qəzetlərində 74 məqalə dərc edilmişdir.

Nazirliyin yanğın təhlükəsizliyi orqanları muxtar respublika ərazisində fövqəladə hallarda fəaliyyəti zəruri olan müəssisə və təşkilatlarda yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə yoxlamalar keçirmiş və izahat işləri aparmışdır. Yanğın-partlayış təhlükəli obyektlərdə yaradılmış könüllü yanğın komandalarının hazırlığı diqqət mərkəzində saxlanılmış və onların fəaliyyətinin təşkilində əməli köməklik göstərilmişdir.

Muxtar respublikada dənli və texniki bitkilərin yığılması, daşınması, emalı və saxlanması dövründə yanğın təhlükəsizliyi qaydalarının təmin edilməsi üçün məhsul yığımında iştirak edən kombaynlara yanğına qarşı texniki baxışlar keçirilərək odsöndürənlərlə təmin edilmişdir. Profilaktika işinin səmərəliliyini daha da artırmaq məqsədilə əkinçiliklə məşğul olan vətəndaşlara, kombaynçılara və sürücülərə təlimat xarakterli tövsiyələr verilmiş, dəyirmanların, taxıl və yem anbarlarının yanğın-texniki müayinəsi aparılmışdır. Biçin dövründə yanğın təhlükəsizliyi şöbələrinin əməkdaşları tərəfindən patrul xidməti təşkil olunmuş və görülmüş qabaqlayıcı tədbirlər nəticəsində taxıl sahələrində yanğın hadisəsi qeydə alınmamışdır.

Muxtar respublika yanğınsöndürənlərinin xidməti dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilmiş, 6 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə", 5 nəfər "Fövqəladə hallar orqanlarında xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı və 31 nəfər "Rəşadətli əməyə görə" döş nişanı ilə təltif edilmişdir.

Bütün bunlar onu deməyə əsas verir ki, yanğın təhlükəsizliyi orqanlarının əməkdaşları bu gün muxtar respublikada əhalinin təhlükəsiz yaşaması, iş və istirahətinin təmin olunması üçün qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlir və bundan sonra da bu istiqamətdə səy və bacarığını əsirgəməyəcəklər.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə birlikdə bölmədə vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 10 oktyabr-10 noyabr 2019-cu il tarixlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 70 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək komissiyaya təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Müsabiqədə yaşı 30-dək olan magistr təhsilini başa vurmuş və ya magistraturanın ikinci kursunda təhsil alan şəxslərin iştirakı məqsədəuyğundur.

Həqiqi hərbi xidmət keçməmiş şəxslər (qadınlar və səhhəti ilə əlaqədar möhlət hüququ olanlar istisna olmaqla) müsabiqəyə buraxılmır.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət Qulluğu Məsələləri üzrə komissiyaya gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar komissiyanın (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dqmk@nakhchivan.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

| Vəzifə kodu | Struktur bölmə | Ştat sayı | Vəzifə |
|---|---|---|---|
| **1. Bölmənin Aparatı** | | | |
| 5101004 | Elmi-təşkilat şöbəsi | 2 | mütəxəssis |
| 5102004 | Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsi | 1 | mütəxəssis |
| 5103003 | İşlər idarəsi | 1 | aparıcı mütəxəssis |
| 5103004 | İşlər idarəsi | 1 | mütəxəssis |
| 5104004 | İnformasiya şöbəsi | 1 | mütəxəssis |
| **Cəmi:** | | **6** | |
| **2.Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu** | | | |
| 5111010 | Qədim və orta əsrlər tarixi şöbəsi | 1 | böyük laborant |
| 5112010 | Yeni və ən yeni tarix şöbəsi | 1 | böyük laborant |
| 5114010 | Qafqaz tarixi şöbəsi | 1 | böyük laborant |
| **Cəmi:** | | **3** | |
| **3. İncəsənət, Dil və Ədəbiyyat İnstitutu** | | | |
| 5122010 | Onomastika şöbəsi | 1 | böyük laborant |
| **Cəmi:** | | **1** | |
| **4. Bioresurslar İnstitutu** | | | |
| 5131010 | Nəbatat şöbəsi | 1 | böyük laborant |
| 5132010 | Zooloji tədqiqatlar şöbəsi | 1 | böyük laborant |
| 5133010 | Torpaq ehtiyatları laboratoriyası | 1 | böyük laborant |
| 5134011 | Dənli, taxıl, paxlalı və texniki bitkilər laboratoriyası | 1 | texnik |
| **Cəmi:** | | **4** | |
| **5.Təbii Ehtiyatlar İnstitutu** | | | |
| 5143010 | Hidrogeologiya və mineral sular laboratoriyası | 1 | böyük laborant |
| 5143011 | Hidrogeologiya və mineral sular laboratoriyası | 1 | texnik |
| 5144010 | Coğrafiya şöbəsi | 1 | böyük laborant |
| 5145010 | İqtisadiyyat şöbəsi | 1 | böyük laborant |
| 5146011 | Seysmoloji xidmət şöbəsi | 1 | texnik |
| **Cəmi:** | | **5** | |
| **6. Batabat Astrofizika Rəsədxanası** | | | |
| 5151010 | Səma cisimlərinin mövqe müşahidələri şöbəsi | 1 | böyük laborant |
| 5152010 | Səma cisimlərinin fotometriyası şöbəsi | 1 | böyük laborant |
| 5152013 | Səma cisimlərinin fotometriyası şöbəsi | 1 | aparıcı elektronçu |
| **Cəmi:** | | **3** | |
| **7. Əlyazmalar Fondu** | | | |
| 5154010 | Əlyazmaların kataloqlaşdırılması, tədqiq və nəşri şöbəsi | 1 | böyük laborant |
| 5155010 | Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası şöbəsi | 1 | böyük laborant |
| 5155009 | Əlyazmaların mühafizəsi, gigiyenası və bərpası şöbəsi | 1 | laborant |
| **Cəmi:** | | **3** | |
| **8. Kitabxana** | | | |
| 5170008 | Kitabxana | 1 | biblioqraf |
| 5170006 | Kitabxana | 1 | kitabxanaçı |
| **Cəmi:** | | **2** | |
| **Yekun:** | | **27** | |

### *İtmişdir*

Kəngərli rayon Qıvraq kənd sakini Tarverdiyev Əfsər İbrahim oğlunun adına olan JN-108$^{M}$ inventar nömrəli torpağın mülkiyyət hüququna dair Dövlət Aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 688